# Milli kinomuzda müəllimlər

## Kaspi Liseyində keçirilən tədbirdə milli kinematoqrafiyanın səhifələri vərəqləndi

**"Milli yaddaşsız millət tarixin aşırımlarından heç vaxt çıxa bilməz. Biz bu yaddaşı möhkəmləndirməliyik ki, böyüməkdə olan nəsil tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi qorumağı bacarsın". Kaspi Liseyində "Milli yaddaş" layihəsi çərçivəsində keçirilən tədbirdə səslənən bu fikirlər həmçinin milli kinematoqrafiyanın səhifələrini vərəqləməyə imkan yaratdı. Kinomuzda təkrarolunmaz müəllim obrazlarından bəhs edən tədbirə dəvət alan görkəmli kino xadimləri milli kinomuzun tarixi və bugünkü mənzərəsinə də güzgü tutdular.**



### BÖYÜK EVİMİZİ TANIDANLAR

**Kaspi Liseyinin təsisçisi Sona Vəliyeva** bildirdi ki, milli yaddaşımıza, vətənimizə, elimizə və obamıza sahib çıxmaq üçün gərək dəyərli insanlarımızın əsrlər boyu topladığı, bizə sərvət qoyduğu və bundan sonra da bizə gərəkli olan müqəddəs nəsnələri qoruyub saxlaya bilək: "Heç bir millətin dövləti onun pulu və ya sərvəti ilə ölçülmür. Onun ədəbiyyatına, mədəniyyətinə, tarixinə verdiyi töhfələrlə ölçülür". S.Vəliyeva tədbirə qatılan görkəmli kino xadimlərini salamlayaraq onların timsalında hələ neçə nəslin bu sənətin arxasınca gedəcəyini, onlardan örnək götürəcəyini qeyd etdi: "Dövlət millətin böyük bir evidir. İctimaiyyətdə olan ailələr isə sanki o böyük evin otaqlarıdır. Bu evin bünövrəsini möhkəmləndirən, daşını qoyan, başqa evlərdən fərqli edən isə onun yaradıcı insanlarıdır. O yaradıcı insanlar doğrudan da beynəlxalq festivallarda nüfuzlu mükafatlar qazanırlar. O yaradıcı insanlar böyük evimizi - bizim ölkəni dünyada tanıdırlar". S.Vəliyeva qonaqlardan Xalq artisti Şəfiqə Məmmədova haqqında şagirdlərə məlumat verərək onu Azərbaycan kino sənətində öz dəst-xətti olan aktrisa kimi dəyərləndirdi: "Şəfiqə xanıma qədər Azərbaycan kinosunda da, teatrında da pafos vardı. Ancaq Şəfiqə xanım bütün bunları ləğv edərək Azərbaycan kinosuna gündəlik həyatda işlənən elə bir səmimiyyət gətirdi ki, artıq tamaşaçı buna inanmaya bilmədi. Şəfiqə xanım reallıqla romantikanı elə gözəl birləşdirdi ki, Azərbaycan səhnəsinə onun simasında təkrarolunmaz bir aktrisa gəldi".



Təsisçi Ş.Məmmədovanın son illər kinoya çəkilmədiyindən, ssenaristlərin ona layiq qadın obrazı yazmamalarından, rejissorların ona uyğun film çəkməməyindən təəssüfünü də dilə gətirdi: "Üzümü rejissorlara tuturam: Şəfiqə xanımın istedadından zamanında istifadə edin. Qoy ssenaristlər aktrisanın istedadına uyğun bir rol yazıb təqdim etsinlər. Hələ gec deyil. Bununla biz qazanacağıq. Azərbaycanın mədəniyyət və incəsənət xəzinəsi aktrisanın yeni bir rolu ilə zənginləşəcək".

S.Vəliyeva digər qonaqlar - Xalq artisti Oqtay Mirqasımov, kinoşünas Ayaz Salayev, İTV-nin baş direktoru, kinorejissor Cəmil Quliyev və Xalq artisti Hacı İsmayılovun da yaradıcılığından bəhs etdi: "Bu yaradıcı insanlar xalqımızın dəyərləridir. Vaxt olacaq onlarla görüş sizin yaddaşınızda həmişəlik qalacaq. Mən əminəm ki, bu şagirdlərin içərisində kimsə bu gündən sonra mütləq rejissor və ya aktyor olmaq arzusu ilə yaşayacaq".







### ƏN ƏSASI, VƏTƏNDAŞ OLASINIZ...

"Kino ecazkar aləmdir" - deyən **İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru, kinorejissor Cəmil Quliyev** kinoya gəlişini, bu sahədə atdığı ilk addımları xatırladı. Belə ki, uşaq vaxtı oxuduğu məktəbin dram dərnəyində iştirak edən C.Quliyev sənətə böyük meyil göstərdiyini dedi: "Təbii ki, bu həvəs məndə kortəbii olmamışdı. Atam Elşad Quliyev televiziyada çalışırdı. Onun incəsənətə, teatra böyük həvəsi vardı və bu həvəsi məndə də oyatmışdı. Mən də öz taleyimi kino sənəti ilə bağladım". 1974-cü ildə rejissor Arif Babayevin dəvəti ilə "Alma almaya bənzər" filminin sınaq çəkilişlərinə dəvət alan C.Quliyev həmin filmdə Kərimov rolunu oynamaq üçün təsdiqlənib: "Mən kinoda ilk dəfə o sadəlövh, kök, duzlu-məzəli uşaq obrazını yaratdım. Bununla da həmin obraz tamaşaçıların yaddaşında qaldı". C.Quliyev liseyin şagirdlərinə gələcəkdə öz peşə yollarını düzgün seçməyi arzuladı: "Arzulayıram ki, müəllimlərinizin sizə tədris etdiyi fənləri dərindən mənimsəyəsiniz, ən əsası, vətəndaş olasınız. Xalqınızı, millətinizi, ölkənizi sevəsiniz".

### BU, ŞƏRƏFLİ BİR YOLDUR

**Xalq artisti, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədova** məktəb illərindən danışaraq həmin dövrün həyatında böyük rol oynadığını xatırlatdı: "Məktəb illərimə minnətdaram ki, mənə savad, dünyagörüşü bəxş edib. Mən məktəbdə çox fəal olmuşam. Həm idmana, həm ədəbiyyata, həm coğrafiyaya, həm də tarixə xüsusilə önəm verirdim. Şagird kimi çox sevimli olmuşam. Bəzən dərsdən qaçıb kinoya gedərdim. Müəllimlər bu barədə gündəliyimdə qeyd edərdilər. Elə ona görə də kino həyatımın bir səhifəsinə çevrildi. Mən kinoya doğrudan da vurğun idim". Müəllim olmağa hazırlaşan Ş.Məmmədovanın İncəsənət İnstitutuna daxil olmaqla bağlı ailəsindən gizli arzusu olub: "Mən gizli şəkildə sənədlərimi İncəsənət Universitetinə verdim və aktrisalığa ərizə yazaraq imtahandan uğurla keçdim. Məni instituta qəbul etdilər. Sonra Filologiya fakültəsinə imtahan verdim. Ora da qəbul oldum. Amma sentyabrda İncəsənət İnstitutunda dərslərə getdim. Valideynlərimin bundan xəbəri yox idi. Onlar yalnız qış sessiyası zamanı bundan xəbər tutdular. Artıq gec idi..." İnstitutun ikinci kursunda oxuyarkən görkəmli rejissor Tofiq Kazımov Ş.Məmmədovanı Akademik Dram Teatrına dəvət edib. Tələbə qız Şekspirin "Hamlet" faciəsində Kraliça rolunu oynayıb. Bu obraz onun səhnəyə vizit kartı olub: "Yaşımla uyğun gəlməsə də, mən belə bir böyük əsərdə çıxış etdim. Hamleti oynayan Həsənağa Turabovla səhnəyə çıxdım. Həmin rol mənim üçün uğurlu oldu". İstər kino, istər aktyorluq, istərsə də rejissorluğun - incəsənətlə bağlı bütün yolların çətin olduğunu qeyd edən aktrisa: "İstedad böyük vergidir. Təkcə istedada sahib olmaq azdır, həmçinin zəhmətkeş olmaq lazımdır. Bütün bu amillər birləşəndə istədiyin sahədə uğur qazanmaq olur. Biz heç vaxt populyarlığın arxasınca qaçmırdıq. Hər gün işimizlə bağlı çox zəhmət çəkirdik"- deyə qeyd etdi. Bu gün də fəal olduğunu deyən Xalq artisti üzünü şagirdlərə tutaraq: "Sizə də həmişə zəhmətkeş olmağı arzulayıram. Tarixə düşmək, tarixə nəsə yazmaq da bir borcdur. Bu, şərəfli bir yoldur. Bu yollardan qorxmayın, çəkinməyin və cəsarətlə addımlayın"- deyə səsləndi.

"İnsan nə qədər yaşa dolursa, o qədər kövrək olmağa başlayır. Bu bir xoşbəxtlikdir ki, insan yaşa dolanda da öz qədrinin bilindiyini hiss etsin" - deyə şagirdlərlə görüşdən məmnunluğunu ifadə edən **Xalq artisti Oqtay Mirqasımov** Azərbaycan kinematoqrafiyasının zəngin tarixindən danışaraq bu sənətə az da olsa töhfə verdiyinə görə özünü xoşbəxt saydığını söylədi: "Əgər bu sahəni sevirsinizsə, biz sizə həmişə kömək etməyə hazırıq. Ancaq əsas məsələ Ananı, Vətən, Torpağı sevməkdir". Xalq artisti həmçinin şagirdlərə "Millətimizin tarixini öyrənin. Bir qarış torpağımızı yaddaşınızdan silməyə kimsəyə imkan verməyin" - deyə tövsiyə etdi.

**Kinorejissor Ayaz Salayev** kinonu gözümüzün qabağında yaranan sənət növü adlandıraraq möcüzə kimi dəyərləndirdi: "Bu sənəti sevmək üçün onun arxasınca cəsarətlə getmək lazımdır. Biz kino adamları heç nədən nəsə yaradırıq. Kino mədəniyyətin, incəsənətin əlamətidir, həm də o maldır - onu pula satmaq olur. Kim sənət seçimində yolundan dönmürsə, o, mütləq uğur qazanır".

**Xalq artisti Hacı İsmayılov** kinoya gəldiyi yola nəzər salaraq bu sənətin heç də asan olmadığını dedi: "Ağlıma da gəlməzdi ki, uşaqlıqdan sevdiyim bu sənət bir gün məni tanıdacaq. Mən bu gün Azərbaycan kinosunda sevilən, saf, təmiz müəllim obrazları yaradacam. "Həm ziyarət, həm ticarət" filmində, "Ad günü" filmində olduğu kimi... Sevinirəm ki, insanlar məni rollarımla tanıyır və sevirlər. Bu bizim sənətimizdə böyük xoşbəxtlikdir". Aktyor kinoda oynadığı müəllim obrazlarının bu gün də yaradılmasına ehtiyac olduğunu qeyd etdi.

Tədbirdə milli kinomuzun bu gününə də nəzər salındı. Həmçinin şagirdlərin sualları əsasında rejissorların və aktyorların gələcək planları, görmək istədikləri işlərə aydınlıq gətirildi.

Liseyin şagirdlərinin ifasında Azərbaycan filmlərindən müəyyən səhnəciklər də göstərildi. Liseyin direktoru Tural Əliyev qonaqlara təşəkkür edərək onlara "Milli yaddaş" layihəsi çərçivəsində hazırlanan mükafatlar təqdim etdi.

**Tədbirdə iştirak etdi**
**Təranə Məhərrəmova**